*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 sentyabr 2020-ci il № 59 (2477) Qiyməti 30 qəpik


## “Türkiyə-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə mükəmməl şəkildə inkişaf edir”

Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə Bakını işğaldan azad etməsinin 102-ci ildönümündə bu yolda şəhid olan qəhrəman əsgərlərimizi rəhmət hissi ilə yad edir, qazilərimizi hörmətlə xatırlayıram.

Ölkələrimiz arasındakı "Bir millət, iki dövlət" şüarının tarixi bünövrəsini qoyan Qafqaz İslam Ordusu ortaq qürur mənbəyimiz və əbədi qardaşlığımızın timsalı olmuşdur. Bakıda olduğu kimi, Çanaqqalada da çiyin-çiyinə mübarizə aparan əcdadlarımızdan bizə miras qalan qardaşlığımız bu gün tale birliyimizin də mənəvi zəminini təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə məktubunda əks olunub.

Məktubda deyilir: "Bu gün Zati-alinizin qardaşlığımıza layiq səyi və töhfələri ilə Türkiyə və Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə mükəmməl şəkildə inkişaf edir. Tariximizdən gələn ilham və sarsılmaz əlaqələrimizdən aldığımız güc-qüvvətlə ölkələrimiz regionumuzun sabitliyinin təminatçısına çevrilmişdir".

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə-Azərbaycan qardaşlığının əbədi davam edəcəyinə, bu günə qədər olduğu kimi, bundan sonra da ölkələrimizin xoş günlərdə də, çətin vaxtlarda da bir-birinin yanında olacağına inamının sonsuz olduğunu vurğulayıb.

## “Biz daim azərbaycanlı qardaşlarımızın yanındayıq”

Azərbaycan və Türkiyə deyərkən əlavə sözə ehtiyac yoxdur. Bizim üçün Azərbaycan deyəndə o dəqiqə ağıllarda "Bir millət, iki dövlət" kəlamı, Bakıdakı türk əsgərlərinin məzarı canlanır. Biz daim azərbaycanlı qardaşlarımızın yanındayıq. Ehtiyac yaranarsa, o cümlədən Qarabağ probleminin həllində Türkiyə bütün imkanları - hərbi texnikası və ordusu ilə hər zaman qardaş Azərbaycanın yanındadır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə Milli Müdafiə nazirinin müavini Alpaslan Kavaklıoğlu ifadə edib.

Azərbaycanla Türkiyənin bütün imkanları dəyərləndirdiklərini bildirən nazir müavini deyib: "Biz Azərbaycanla birik, bərabərik və hər zaman qardaş ölkənin yanındayıq. Türkiyə olaraq bunu hər zaman bütün dünyaya açıq şəkildə bəyan edirik".

*Ön xətdən reportaj*

## “Torpaqlarımızı işğaldan azad etməyə hazırıq, qadirik!”



Gen dərələrin ətəyindən dolanıb keçən yollarla üzü səngərlərə doğru gedirik. Ovqatımız olduqca yüksəkdir. Çünki Vətənin keşiyində dayanan zabit və əsgərlərlə görüşəcəyik. Onlarla maraqlı görüş və söhbətlərimiz çox olub. Belə görüşlərin hər biri yaddaşımıza hopub. Yəqin ki, bugünkü görüşümüz də yaddaşımızdan silinməyəcək. Nə vaxt ön xətdə dayanan hərbçilərimizin yanına gediriksə, onları yüksək ovqatda görürük.

Bizi ön xəttə aparan avtomobilin sürücüsü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Süleyman Quluzadənin həyat hekayəsi həsrət qoxuludur. 1992-ci ildə Zəngilan rayonunun Cahangirbəyli kəndində dünyaya göz açan Süleyman bir yaşı olmamış doğma ocaqlarından didərgin düşüb. Ermənilər 1993-cü ilin oktyabrında onun ata-baba yurdunu işğal edərək odlara qalayıb.

- Zəngilanda doğulsam da, doğma ocaqlarımızda bir ildən çox yaşaya bilməmişəm, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Süleyman Quluzadə deyir. - Mən Zəngilanı yalnız valideynlərimin yadigar saxladıqları şəkillərdə görmüşəm. 1993-cü ilin soyuq payız günlərində erməni işğalçıları rayonumuzu, kəndimizi işğal edərək bizi doğma ocaqlarımızdan didərgin saldılar. Çətin günlər yaşadıq. Bu gün də belə ata-baba yurdumuzu unutmuruq. Daim kəndimizə qayıtmaq arzusu ilə yaşayırıq. Günlərin birində mən də həmyaşıdlarım kimi hərbi xidmətə çağırıldım. Vətən qarşısındakı əsgəri borcumu başa vurandan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi gündən-günə güclənən ordumuzun sıralarında qalıb xidmət etməyə başladım. Bu addımı atmaqda məqsədim yurdumuzun azadlığı uğrunda başlayacaq döyüşlərdə iştirak etməkdir. Ürəyim torpaqlarımızı işğal edən düşmənə nifrətlə döyünür. Dilimiz "intiqam", ürəyimiz "qisas" deyir. Biz düşməndən qat-qat güclü və qüdrətliyik. Daim güclənən ordunun əsgəri olmağımdan qürur duyuram. İnanıram ki, qarşıdakı döyüşlərdə mütləq qələbə qazanacağıq. Azərbaycan əsgəri güclüdür, Azərbaycan əsgəri qüdrətlidir, Azərbaycan əsgəri məğlubedilməzdir. Keçib getdiyimiz bu ərazidən dünyaya göz açdığım Zəngilan rayonuna o qədər böyük məsafə yoxdur. Ümid edirik və inanırıq ki, günlərin birində geri dönəcəyik. Əminik ki, müntəzəm olaraq keçirilən genişmiqyaslı təlim-məşqlərdə döyüş hazırlığını artıran zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə erməni qəsbkarlarını məğlub edəcəklər. İşğala son qoyulacaq. Mən bir əsgər kimi işğal olunan torpaqlarımızın azadlığı uğrundakı döyüşlərdə həmişə öndə vuruşacağam.

(Ardı 3-cü səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri: Azərbaycan Ordusu torpaqlarımızın azad edilməsi naminə müqəddəs vəzifəni yerinə yetirməyə hazırdır

*Sentyabrın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, əlahiddə hərbi hissə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə görüşüb.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri cari ilin ötən dövründə döyüş hazırlığı və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini aparıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət göstərdiyini qeyd edən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuz qarşısında qoyduğu tapşırıqları görüş iştirakçılarına çatdırıb.

Cəbhədəki son vəziyyətə toxunan Müdafiə naziri şəxsi heyətin döyüş hazırlığını və ayıq-sayıqlığını yüksək səviyyədə saxlamağı, eləcə də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə törədə biləcəyi genişmiqyaslı təxribatların qarşısının dərhal və qətiyyətlə alınmasını əmr edib.

Azərbaycan xalqının orduya inamının güclü olduğunu xatırladan nazir torpaqlarımızın işğaldan azad edilməsi naminə müqəddəs vəzifənin yerinə yetirilməsinə əsgərdən generaladək hər bir hərbi qulluqçunun hazır olduğunu bildirib.

Orduda həyata keçirilən döyüş hazırlığı tədbirləri, bölmələrin təminat və təchizatı, eləcə də döyüş qabiliyyətinin artırılması məsələlərini diqqətə çatdıran Müdafiə naziri, həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 34 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***17 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli və Ağdam kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***18 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 38 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# “Bayrağımız tezliklə işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq”

*Ordu sıralarında xidmətləri ilə tabeliyində olan şəxsi heyətə nümunə olan zabitlərimiz çoxdur. Leytenant Talıb Talıbov da belə zabitlərdəndir. Onunla düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində tanış olduq.*



Öyrənirik ki, gənc leytenant Talıb Talıbov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin builki məzunudur. Zabit Pərviz Qafarov qeyd etdi ki, xidmətə ön cəbhədə başlayan gənc zabit Vətənimizə sədaqətlə xidmət edir. "İlk gündən nizam-intizamı və nümunəvi xidməti ilə yuxarı komandanlığın rəğbətini qazanıb. Tabeliyində xidmət edənlərdən diqqət və qayğısını əsirgəmir, mütəmadi olaraq onlarla fərdi söhbət aparır. Bölmədə sorğu keçirilən zaman əsgərlər də komandirlərindən razılıqlarını bildirirlər".

Gənc zabitlə yaxından tanış olmaq məqsədilə döyüş mövqeyinə yollandıq. Öyrəndik ki, zabitin atası Qarabağ müharibəsi veteranıdır. O, Ağdam istiqamətində gedən ağır döyüşlərdə yaralanıb. Talıbın zabit olmasında atası Vidadinin böyük əməyi olub. "Atalarımız Vətənimizin dar günündə onun müdafiəsində dayanıblar. Bəziləri yaralanıb, bəziləri isə şəhidlik zirvəsinə ucalıblar. Düşmənə gözaçmağa imkan verməyiblər. Atam silahdaşlarından çox danışardı. Həmişə mənimlə birlikdə onların məzarını ziyarət edərdi. Sağ qalan dostları ilə görüşəndə keçmiş günləri xatırlayardılar. Həmin vaxtdan Vətən sevgisinin heç bir sevgi ilə müqayisə edilməyəcəyini anladım. Bu gün atamın və onun silah yoldaşlarının yolunu davam etdirdiyim üçün fəxr edirəm".

- Vətənə xidmət etmək hər birimizin vətəndaşlıq borcudur, - deyə zabit sözünə davam etdi. - Hər bir azərbaycanlı Vətəninə vəzifə borcunun öhdəsindən layiqincə gələrək xidmət edir. Biz hərbçiyik. Vətənin müdafiəsinə çağırılan əsgərlərimizi mahir döyüşçü kimi formalaşdırmalıyıq. Başlıcası isə hər bir komandir şəxsi nizam-intizamı ilə tabeliyindəkilərə nümunə olmalıdır. Təhsil ocağında keçdiklərini təkrarlamalıdır. Keçirilən məşğələlər əsgərlərin döyüş, mənəvi-psixoloji, fiziki hazırlığının artmasına köməklik göstərir. Çalışıram ki, tabeliyimdə olan əsgərlər yüksək döyüş hazırlığına malik olsunlar. Sərbəst döyüş tapşırığını yerinə yetirə bilsinlər.

Gənc zabit hər an işğalda olan torpaqlarımızı azad etməyə hazır olduğunu bildirdi: "Xalqımızın etimadını doğruldacağıq. Bayrağımız tezliklə işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

(Əvvəli 1-ci səhifədə)

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Süleyman Quluzadə ilə söhbətdən ovqatımız bir az da yüksəlir. Hərbçilərimizin yüksək vətənpərvərliyi, yenilməz hünəri qarşıdakı qələbə və uğurlardan xəbər verir. Təbiidir ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün gedəcək döyüşlərdə ön sırada vuruşmağa hazır olan əsgər döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərəcək. Doğma ocaqlarına qalib ordunun əsgəri kimi dönəcək.

Səngər boyu irəli gedərək mövqelərdə döyüş növbətçiliyi aparan əsgərlərlə də görüşürük. Baş gizir Sahət Tahirovla söhbət zamanı öyrənirik ki, o, uzun müddətdir torpaqlarımızın müdafiəsindədir. Bu müddət ərzində şərəfli xidmət yolu keçib, həmişə nümunəvi xidmət edənlərdən olub.

- Yurdumuzun hər qarışı mənim üçün əziz və doğmadır. Elə doğma olduğuna görə də uzun illərdir Vətənimin keşiyindəyəm, - deyə baş gizir Sahət Tahirov söhbətə başlayır. - Vətənə xidmət etmək, onu qorumaq bizim müqəddəs və şərəfli borcumuzdur. Bu borcu ləyaqətlə yerinə yetirdiyimə görə qürurluyam. Xalqımız qəhrəman, cəsur xalqdır. Zaman-zaman Vətən oğulları yadellilərlə mübarizələrdə böyük igidlik və qəhrəmanlıqlar göstəriblər. Qanları və canları bahasına qoynunda dünyaya göz açıb yaşadıqları torpaqları qoruyublar. Bu gün bizim damarlarımızdan döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmiş babalarımızın qanı axır. Biz də onların qəhrəmanlıqlarını təkrar edərək, erməni işğalçılarını torpaqlarımızdan təmizləyəcəyik.



Döyüşlərdə Azərbaycan əsgərinin gücünü görən erməni qəsbkarları qorxularından qısa müddət ərzində işğalda saxladıqları torpaqlarımızı tərk edəcəklər. İndi ordumuz əvvəlki ordu deyil, bu gün biz çox güclüyük. Qısa zamanda düşməni məhv etməyə qadirik. Biz qarşıdakı döyüşlərdə mütləq qalib gələcəyik. Azərbaycan Ordusunun zabit və əsgərləri Azərbaycan xalqına Böyük Qələbənin sevincini yaşadacaq.

Əsgərlərdən eşitdiklərim də ürəyimizcə oldu. Əsgər Abdul Novruzov deyir ki, xidmətimin xeyli hissəsi arxada qalıb. “Amma mən doğmalarımın yanına ordumuzun qalib əsgəri kimi qayıtmaq istəyirəm. İstəyirəm ki, sinəmə sıxdığım bu silahla erməni işğalçılarını məhv edim, şəhidlərimizin intiqamını, qisasını alım. Əsgər dostlarım da bu fikirdədirlər. Hamımız istəyirik ki, hünərimizlə, cəsarətimizlə qəhrəmanlıq tariximizə yeni səhifələr yazaq. Axı niyə də yazmayaq? Çünki düşməni məhv edib yurdumuzdan qovmağa qadirik. Ötən müddət ərzində ordumuz böyük inkişaf yolu keçib. Bütün sahələrdə təminatımız yüksəlib. Güclənmişik, qüdrətlənmişik. Bütün bunlar bizi çox sevindirir. Çünki bu güc, bu qüdrət, bu yüksəliş mütləq və mütləq sonda bizi qələbələrə qovuşduracaq. İnanıram ki, mən valideynlərimin yanına qalib ordunun əsgəri kimi dönəcəm.”

- Goranboy rayonunun Rəhimli kəndində dünyaya göz açmışam, - deyə əsgər Ruslan Məmmədov söhbətimizə qoşulur. - Erməni qəsbkarları 1991-1994-cü illərdə Goranboy rayonunun ərazisinə hücum ediblər. Həmin günlərdə yurd qeyrəti çəkən oğullar silaha sarılaraq döyüşlərə atılıblar. Böyük hünər və cəsarətlə vuruşaraq erməni işğalçılarını ağır məğlubiyyətə uğradıblar. Vətənimizin müdafiəsinə qalxan oğullar bu qanlı döyüşlərdə son dərəcə mətinliklə vuruşublar. Buna görə də ermənilər Goranboy istiqamətindən irəliləyə bilməyiblər. Bu gün biz o cəsur oğulların döyüş yollarını şərəflə davam etdirəcək, düşməni daha da ağır məğlubiyyətlərə uğradacağıq. Buna bizim gücümüz və qüdrətimiz çatır. Azərbaycan əsgəri Qarabağ uğrunda döyüşlərdə mütləq qalib gələcək, cəsarəti və hünəri ilə tarix yazacaq!

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Qüdrət Əlizadə, əsgərlər Dəmir Nəbiyev, Elcan Bayramov və başqaları ilə etdiyimiz söhbətlər ovqatımıza ovqat qatır. Bir daha əmin oluruq ki, belə cəsur oğullar yurdumuzun erməni işğalçılarından azad olunması uğrundakı döyüşlərdə cəsarət və hünərlə vuruşacaqlar. Şuşaya, Xankəndinə qalibiyyət bayrağını onlar sancacaqlar.

Həm də yaxın vaxtlarda.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# “Torpaqlarımızı işğaldan azad etməyə hazırıq, qadirik!”



Yolumuz düşmənlə təmas xəttində döyüş növbətçiliyi aparan mərd, cəsur, vətənpərvər əsgərlərimizin yanınadır.

Səhər saatlarında düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə çatırıq. Zabit Amil Hüseynovun müşayiəti ilə səngərlərə gedirik. Yolumuz daşlı-çınqıllı, kələ-kötür, sərt döngəli aşırımlardan keçir.

Səngərə çatanda "Öncə Vətəndir" şüarı nəzərimizdən yayınmır. Bu şüar bir daha təsdiqləyir ki, əsgərlərimiz Vətən üçün yaşayır, Vətən üçün xidmət edirlər. Ən ülvi duyğudur Vətən sevgisi. Biz Vətənimizlə qürur duyduğumuz kimi, onu böyük məhəbbətlə sevirik. "Vətən haqqı ana haqqıdır" kəlamının işığında Vətənin keşiyində ayıq-sayıq dayanan, onu göz bəbəyi kimi qoruyan igidlərimizlə həmsöhbət oluruq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Sakit Abdıyev 2 ildən artıqdır ki, ordu sıralarında xidmət edir. Əsgəri xidmətini başa vurduqdan sonra Vətən sevgisi onun yenidən ordu sıralarına qayıtmasına səbəb olub. Çavuş Sakit Abdıyev cəbhə bölgəsində xidmət etməkdən qürur duyduğunu bildirir. "Burada xidmət etmək çox məsuliyyətli və şərəflidir. Tabeliyimdə olan əsgərlər də mərd və qorxmazdırlar. Onlar anlayırlar ki, düşməni daima müşahidə altında saxlamalıdırlar. Hər birimizin döyüş ruhu yüksək səviyyədədir, hər an torpaqlarımızı işğaldan azad etməyə hazırıq."

Səngərlər alınmaz qalanı xatırladır. Səliqəlidir, genişdir... Döyüş növbətçiliyi aparan əsgərimizə yaxınlaşırıq. Düşüncələrim məni ağuşuna alır. Bu divarın o tayında bizim ata-baba yurdumuz düşmən tapdağı altındadır. Onlar bilməlidirlər ki, Azərbaycan əsgəri nəyin bahasına olursa-olsun, tarixi torpaqlarını tezliklə azad edəcək . "Növbətçiliyim zamanı heç bir hadisə baş verməyib" sözləri məni düşüncələrimdən ayırır.

Qarşımda dayanan məğrur baxışlı əsgərə "Vətən sevgisi səncə nədir?" - sualını verirəm. O, maraq dolu baxışlarla deyir:

- Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin torpağını, daşını, havasını, suyunu sevmək deməkdir. Vətənə bağlılıq onu sevmək,



qorumaq deməkdir. Çünki nə Vətənsiz bir millət, nə də millətsiz bir Vətən ola bilər. Vətən əldən gedərsə, o millətin hər cür milli-mənəvi dəyərləri də yox olub gedər. Vətənə bağlılıq milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır.

Bu sözləri deyən əsgər Elşən Quliyevə görə, ön xətdə xidmət etmək Vətən sevgisini daha da artırır.

Əsgər İrfan Abdullayev hərbi xidmətə Balakən rayonundan çağırılıb. Onun dediyi sözlər bizi qürurlandırır:

- Xidmətə gələn gündən məsuliyyətli olmağa, üzərimə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə çalışmışam. Hər zaman ön xətdə xidmət etmək arzum olub. Döyüş növbətçiliyi aparmaq son dərəcə məsuliyyətli olmağı tələb edir. Üzərimə düşən məsuliyyətin ağırlığını yaxşı dərk edirəm. Döyüş növbəsində sayıqlığımı itirmədən xidmət aparıram. Düşmən mövqelərini bir an belə nəzarətsiz qoymuram. Düşmənə daim nəzarət edirik. Hər an istənilən təxribatın qarşısını almağa, Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etməyə hazırıq.

Əsgər Şəhriyar Məmmədli ön xətdə xidmət etməyin qürurverici olduğunu vurğulayır. "Ön xətdə xidmət etməkdən əsgər dostlarım kimi mən də fəxr hissi keçirirəm. Hər dəfə döyüş növbətçiliyinə çıxanda tarixi torpaqlarımızın mənfur düşmən işğalında olduğunu görmək məni məyus edir. Tezliklə Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı düşməndən azad edəcəyik. Bu qələbədə mənim bir əməyimin olmasını istəyirəm. İstəyirəm ki, ailəmin yanına qalib əsgər olaraq qayıdım."

Əsgərlərimizi dinlədikcə qürurlanıram, fərəhlənirəm. Çox böyük sevincdir azərbaycanlıyam demək, ordunla, dövlətinlə, millətinlə, onun qəhrəman oğulları ilə fəxr etmək. Xalqımız qorxmaz, qəhrəman, mübariz xalqdır. Biz bu mübarizliyi, qəhrəmanlığı tarix boyu göstərmişik. Qədimdən azadlıq, müstəqillik uğrunda savaşlar aparmışıq. Ərazi bütövlüyümüz uğrunda şəhidlər vermişik, zəfərlər qazanmışıq. Düşmən yaxşı bilməlidir ki, Azərbaycan əsgəri güclüdür. Onun gücü silahı Vətən sevgisidir.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# 15 Sentyabr - Bilik Günü Heydər Əliyev adına Hərbi Liseydə də qeyd edilib






Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 15 Sentyabr - Bilik Günü Heydər Əliyev adına Hərbi Liseydə də qeyd edilib. Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev Bilik Günü münasibətilə zabit, müəllim və kursantları təbrik edərək bildirib ki, 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 338 kursant təhsil alır. Hərbi liseydə fəaliyyət göstərən pedaqoji kollektivin vətənpərvərliyinin və peşəkarlığının nəticəsidir ki, kursantların təhsilində, tərbiyəsində və intizamında uğurlar qazanılıb. Ötən illər ərzində Hərbi liseyi 3 min 200-dən çox kursant bitirərək müxtəlif ali hərbi məktəblərə daxil olub. Bu il Hərbi liseyi bitirən məzunlardan 145 nəfəri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, 28 nəfəri Türkiyə Respublikasının, 9 nəfəri Rusiya Federasiyasının ali hərbi məktəbinə daxil olub.

Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Lamiyə Əsgərova və kursant Xəyyam Gülməmmədov çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib, bundan sonra da dərslərdə fəal olacaqlarına söz veriblər.

Çıxışların ardından orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, tribuna önündən təntənəli keçid olub.

Qeyd edək ki, hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilir. Tədbirdə kursant çantalarına baxış olub. Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev pedaqoji kollektivlə görüşüb, keçirilən dərslərlə maraqlanıb.

*Döyüş hazırlığı*

# Təlimlər döyüş hazırlığını daha da artırır

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin döyüş hazırlığı ilə yaxından tanış olduq. Dağlıq ərazidə bölmənin döyüş hazırlığı məşğələsi ilə məşğul olan şəxsi heyətə yaxınlaşdıq. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər. Komandir tərəfindən verilən komandaları cəld yerinə yetirirdilər.*



Heyət nəfərlərinə əmr və tapşırıqlarını verən baş leytenant Yasin İbrahimovla həmsöhbət olduq. Zabit Y.İbrahimov bildirdi ki, dağlıq ərazidə xidmət etmək çətin olsa da, igid, mərd və cəsur oğullarımız hər cür şəraitdə sayıqlığı itirmirlər. "Hər biri xidmətləri ilə seçilir. Hər birinin döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlığı olduqca yüksək səviyyədədir. Verilən əmrlərə sözsüz tabe olurlar. Döyüş növbətçiliyini düzgün təşkil edirlər. İstənilən an Ali Baş Komandanımızın əmri ilə düşmənə gördüyünüz qurğudan qan uddurmağa hazırdırlar.

Əlbəttə, nəinki dağlıq ərazidə, ümumiyyətlə, düşmənlə təmas xəttindəki bölmələrin hamısında sayıqlıq əsas şərtdir. Düşmən çox hiyləgərdir. Onlar istənilən an təxribatlara əl atır, mövqelərimizə soxulmağa fürsət axtarırlar. Yalnız mərd və cəsur Azərbaycan əsgərlərinin sayəsində düşmənin istənilən təxribatının qarşısı alınır. Bu yaxınlarda düşmənin kəşfiyyat-diversiya qrupu təxribat törətməyə cəhd göstərdi. Ordumuzun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur oldu. Döyüş zamanı erməni kəşfiyyat-diversiya qrupunun komandiri əsir götürüldü. Bu, bir daha göstərdi ki, ordumuzun şəxsi heyətinin döyüş hazırlığı və ayıq-sayıqlığı yüksək səviyyədədir".

Şəxsi heyətin döyüş hazırlığından söz açan baş leytenant Yasin İbrahimov qeyd etdi ki, ön xətdə xidmət aparan əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı ilə peşəkar zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları məşğul olurlar. "Bu səbəbdən də ön xətdə heç bir narahatçılıq baş verə bilməz. Plana uyğun olaraq təlimlər keçirilir. Təlimlərdə əsgərlərimiz yüksək peşəkarlıq nümayiş etdirirlər. Müxtəlif məsafələrdən atəş açmağı mənimsəyirlər. Daim döyüş hazırlıqlarını artırır və istənilən tapşırığı heç bir çətinlik çəkmədən qısa bir müddət ərzində həyata keçirməyə hazırdırlar. Gördüyünüz kimi, bayaq onlar minaatan qurğusunu "döyüşə" və "səfərə" vəziyyətinə gətirdilər. Cəld və qısa bir zamanda komandanı icra etmələri onların təcrübəli və hazırlıqlı olduqlarından irəli gəlir. Əsgərlərimizin sosial-məişət şəraiti də göz önündədir. Son vaxtlar əsgərlərimizin məişət şəraiti tamamilə yaxşılaşdırılıb, təminatları yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni qazanxanalar, yeməkxanalar, yataqxanalar, camaşırxanalar, istirahət, bərbər və hamam otaqları şəxsi heyətin istifadəsinə verilib."

Dərs prosesindən danışan zabit bildirdi ki, minaatan qurğusunun sirlərini şəxsi heyətə öyrətmək üçün məşğələnin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. "Öncə onlara dərslərin mövzusu barədə nəzəri olaraq məlumat veririk. Sonra isə şəxsi heyət nəzəri biliklərini praktiki olaraq həyata keçirirlər. Verilən komandalar üzrə fəaliyyətə başlayırlar."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ayaz Nəsibli bildirdi ki, dağ-meşəlik və düzənlik ərazilərdə keçirilən praktiki məşqlərə cəlb olunan şəxsi heyət 120 millimetrlik minaatan komplekslərindən düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək tapşırıqlarını yerinə yetirir. "Keçirilən məşqlərdə bölmələrin "döyüşə" və "səfərə" düzülüşü, hədəflərin təyin edilməsi, atış yerinin seçilməsi, mövqeyin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edilir. Məşğələlərin və təlimlərin əsas məqsədi əsgərlərin praktiki vərdişlərinin təkmilləşdirilməsindən, eləcə də ağır şəraitdə aparılan müasir döyüş hazırlığının səviyyəsinin artırılmasından ibarətdir."

Əsgərlərimizlə söhbət edərkən üzlərindəki ifadələrdən düşməndən intiqam almaq əzmilə xidmət etdiklərini hiss etməmək mümkün deyildi. Hər biri döyüş meydanına atılacağı günü səbirsizliklə gözləyir. Əsgər Qədim Əliyev bildirdi ki, dərslər yüksək səviyyədə keçirilir. "Komandirlərimizin sayəsində minaatan qurğusunun bütün sirlərinə yiyələnmişik. Heç bir çətinlik çəkmədən istənilən komandanı icra edə bilərik. Qazandığımız uğurlara görə komandir heyətimizə borcluyuq. Onlar bizi döyüşçü kimi yetişdiriblər. Gündəlik dərslərin nəticəsidir ki, keçirilən təlimlərdə heyətimiz yüksək nailiyyətlər əldə edir. Biz hər zaman düşmənə ağır zərbələr endirməyə və işğalda olan torpaqlarımızı azad etməyə tam hazırıq. Bunun üçün Ali Baş Komandanımızın əmrini gözləyirik".

- Hərbi xidmətimi başa vurmağa az vaxt qalıb, amma döyüşlər başlayan kimi yenidən orduya qayıdacağam və komandirlərimizlə çiyin-çiyinə düşmənə gücümüzü sübut edəcəyik. Etiraf edim ki, hərbi xidmət həyatımda bir məktəb oldu, həm döyüşçü olmağımın, həm də gələcək müstəqil həyatda yaşamağımın sirlərini öyrəndim.

Hərbi xidmətə Şəki rayonundan çağırılan Nurlan Mirzəyev orduda keçirdiyi günlərin dəyərindən, təlim və məşğələlərdə peşəkarlıq qazanmasından danışdı.

- Hərbi xidmət hər birimiz üçün əhəmiyyətli bir dövrdür və bu dövrdə döyüşçüyə xas olan vacib vərdişləri mənimsəyirik, həmçinin bir çox mənəvi keyfiyyətlərə alışırıq.

Əsgər Məmməd Bayramlı dedi ki, keçirilən təlimlər onları qələbəyə ruhlandırır. "Təlimlər başlayanda bildiklərimizi və öyrəndiklərimizi nümayiş etdiririk. Minaatan qurğusunun sirlərini dərindən mənimsəyirik, axı qarşıda bizi daha əhəmiyyətli bir sınaq - torpaqlarımızın işğaldan azad ediləcəyi gün gözləyir. Mən və əsgər yoldaşlarım o günün həsrətilə xidmət edirik. İşğal olunan torpaqlarımızı tez bir müddətdə düşməndən azad etmək istəyirik. Artıq xidmətimizi Kəlbəcərdə, Laçında, Şuşada, ... davam etdirmək istəyirik. Axıdılan qanımızın qisasını almaq istəyirik. Buna görə də Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik."

Əsgər Mirnur Qasımov da qeyd etdi ki, hərbi xidmət onlardan intizamlı olmaq, hərbi sirri qoruyub saxlamaq, dözümlülük, cəsarət tələb edir. Bura hər birimiz üçün bir məktəbdir. Bu məktəbdə biz çox şeyləri öyrənirik. Daha cəsarətli, güclü döyüşçü kimi formalaşırıq. Bu məktəbin sayəsində gələcək həyatımızda müstəqil ayaqda durmağı öyrənirik. Bu vərdişləri bizə aşılayan komandirlərimizə dərin minnətdarlığımı bildirirəm."

Beləliklə, əsgərlərimizlə söhbətdən sonra əminliklə deyə bilərik ki, hamısının bir məqsədməramı var: tezliklə işğalda olan torpaqlarımızı düşməndən azad etmək!

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Gəncə şəhərində Bakının azad edilməsinin 102-ci ildönümü ilə əlaqədar tədbir keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakının işğaldan azad edilməsinin 102-ci ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Gəncə şəhərində təntənəli mərasim keçirilib.

Tədbirdə Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyə Respublikasının Gəncə şəhərindəki baş konsulu Zeki Öztürk, şəhər sakinləri və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri ifa olunub.

Mərasimdə çıxış edənlər şəhidlərə ehtiramlarını bildirib və xalqlarımızın sarsılmaz birliyindən iftixarla danışaraq 102 il öncə Azərbaycan və türk əsgərlərinin Bakını işğaldan azad edərək



Azərbaycan tarixinə şanlı səhifə yazdığından söhbət açıblar.

Tədbirdə vurğulanıb ki, Azərbaycan müstəqillik qazandıqdan sonra dinamik inkişaf mərhələsi keçərək güclü və qüdrətli dövlətə çevrilib. Azərbaycan-Türkiyə qardaşlığı bu gün də ən yüksək səviyyədədir və bu dostluq, qardaşlıq sarsılmazdır, əbədidir. Biz bugünkü xoşbəxt, firavan həyat üçün həyatlarını Vətən, xalq yolunda qurban verən qəhrəman şəhidlərimizə borcluyuq. Böyük Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır", ulu öndər Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik" kəlamları bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir. Bu münasibətlər Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən bu gün də inamla, uğurla davam etdirilir.

Təntənəli mərasim Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin təqdim etdiyi konsert proqramı ilə başa çatıb.

## "Türkiyə-Azərbaycan qardaşlığı nəinki bölgə, ümumiyyətlə, dünya ölkələri üçün də nümunədir"

Türkiyə-Azərbaycan qardaşlığı nəinki bölgə, ümumiyyətlə, dünya ölkələri üçün də nümunədir. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri, mütəmadi təmaslar, dövlət başçılarının verdikləri birgə bəyanatlar və atdıqları addımlar Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının bariz nümunələridir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim ifadə edib.

Diplomat, həmçinin deyib: "Hər iki ölkənin dövlət qurumları olaraq biz prezidentlərimizin təlimatlarına əsasən, işimizi lazımi səviyyədə qurmuşuq. Hazırda bütün istiqamətlərdə, o cümlədən iqtisadi, siyasi, hərbi və sair sahələrdə Türkiyə ilə Azərbaycan bir-birinin gücünə güc qatır və bu, eyni səviyyədə davam edəcək. Gələcəklə bağlı planlarımız böyükdür və bunun üçün göstərəcəyimiz hər bir səy çox vacibdir".

# Azərbaycan və Türkiyə HHQ-nin aviasiya vasitələri Naxçıvan şəhəri üzərində birgə uçuşlar keçirib



*Sentyabrın 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən erməni-bolşevik birləşmələrindən azad edilməsinin 102-ci ildönümü münasibətilə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin Naxçıvan şəhəri üzərində birgə uçuşları təşkil olunub.*

Bundan əvvəl birinci mərhələsi keçirilən "Sarsılmaz qardaşlıq-2020" Azərbaycan-Türkiyə birgə təlimi və təşkil olunan uçuşlar Azərbaycan və Türkiyə qardaşlığının, hərbi birliyinin nümunəsidir.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev, Naxçıvan şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi albay Mustafa Günhan, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını, Türk şəhidləri abidəsini və Ana fəryadı xatirə heykəlini ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları nümayiş etdirilib. Bu zəfər bayramında ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" dahi kəlamının fəlsəfəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz və əbədi olduğunu göstərir.

*Nümunəvi xidmət*

# "Mən də döyüşlərin iştirakçısı olacam!"

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin bölməsindəyik. Torpaqlarımızın keşiyində dayanan igid oğullarımızla görüşə gəlmişik. Bizi müşayiət edən zabit Bəbir Həsənliyə "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istəyimi bildirdim. O, əsgər Elgün Səmədovun adını qeyd etdi. Zabit tabeliyində xidmət edən əsgərdən danışaraq dedi ki, Elgün Səmədov xidmətini düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir. Onun komandirlərinin və əsgər yoldaşlarının hörmət və rəğbətini qazandığını qeyd etdi.

Şəmkir rayonundan hərbi xidmətə çağırılan əsgər Elgün Səmədov öz vəzifəsinin öhdəsindən məsuliyyətlə gəlir.

"Hərbi xidmətə çağırıldığım ilk gündən komandirlərimizdən nizam-intizamlı olmağı, öyrədilənləri dərindən mənimsəməyi öyrəndim", - əsgər Elgün Səmədov söhbətə başladı. - Keçirilən hər məşğələ bizi hərbi xidmətə daha da möhkəm bağlayırdı".

Elgün qeyd etdi ki, əmisi Dilqəm də Qarabağ döyüşlərinin iştirakçısı olub. "Hərbi andı qəbul etdiyim gün valideynlərimlə birlikdə əmim də məni görməyə gəlmişdi. O, mənə xidmətimdə uğurlar arzulayaraq, komandirlərimin əmr və tapşırıqlarını dəqiq yerinə yetirməyi, öyrədilən hər şeyi dərindən mənimsəməyi tövsiyə etdi. Əmim deyirdi ki, fərdi hazırlığıma xüsusi diqqət yetirim. Çünki döyüş meydanı hazırlıqlı və güclü əsgərlərin yeridir. Buna görə mütəmadi olaraq məşq edir, fiziki hazırlığımızı artırırıq. Onu da qeyd edim ki, komandirlərimizlə birlikdə məşq etmək bizi daha da ruhlandırır. İnanırıq ki, tezliklə düşmən də döyüş meydanında gücümüzün şahidi olacaq. Mən də döyüşlərin iştirakçısı olacam!"

- Biz əsgərlərin üzərinə şərəfli və məsuliyyətli vəzifə düşür. Hər an bu vəzifənin öhdəsindən layiqincə gəlməyə hazırıq. İşğalda olan torpaqlarımıza "Cəngi" sədaları altında yenidən ayaq basacağıq. Doğma el-obasından didərgin düşən soydaşlarımızın hər gün həsrətlə gözlədiyi bir xəbər var - torpaqlarımızın işğaldan azad olunması xəbəri. Bizi qələbəyə aparacaq döyüş uzaqda deyil.

Elgün onu da dedi ki, hərbi hissədə onlar üçün hər cür sosial-məişət şəraiti yaradılıb. "Ali Baş Komandanın və Müdafiə nazirinin biz əsgərlərə göstərdiyi diqqət və qayğı hər birimizi daha da ruhlandırır. Əsgər yataqxanamız, yeməkxanamız və digər şəraitimiz müasir standartlara cavab verir. Komandirlərimiz bizim istirahətimizə xüsusi diqqət ayırırlar".



Vətənin müdafiəçisi ilə söhbətimiz bir daha sübut etdi ki, əsgərlərimizin döyüş ruhu yüksəkdir. Onlar hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad etməyə, xalqımıza qələbə sevincini yaşatmağa hazırdırlar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Gəncədə Hərbi Hospitalın yeni inşa edilmiş şöbəsinin açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər davam edir, müasir standartlara cavab verən hərbi infrastruktur yaradılır.*



Hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı olaraq sentyabrın 16-da Gəncə Qarnizonunda hərbi hospitalın yeni inşa edilmiş infeksion xəstəliklər şöbəsinin açılışı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iştirak edən general-mayor Xəqani Cəbrayılov və Müdafiə Nazirliyi Tibb Baş İdarəsi rəisinin müavini polkovnik Elxan İbrahimov istifadəyə verilən şöbədə yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, inkişaf etmiş ölkələrdə istehsal edilən ən müasir tibbi avadanlıqlarla təchiz edilən şöbədə hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb.

Açılış mərasimində çıxış edən polkovnik E.İbrahimov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində aparılan islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də əldə olunmuş uğurlardan danışıb, Müdafiə nazirinin təbriklərini və tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyduğu tapşırıqları tədbir iştirakçılarına çatdırıb.



# Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyanat yayıb

*İcmadan AZƏRTAC-a verilən məlumata görə, bəyanatda deyilir: "Ermənistan həm özü, həm də Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qondarma qurumun dili ilə ölkəmizə qarşı təxribatçı bəyanatlar verməkdə davam edir. Qondarma rejimin "başçısı" münaqişənin tənzimlənməsi üçün 7 "prinsip" irəli sürdüklərini bildirib.*

Bir müddət öncə Ermənistanın baş naziri Nikol Paşinyan da əsassız və təxribatçı 7 prinsip ilə çıxış etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulamışdı ki, biz yalnız bir şərt irəli sürürük: Ermənistan öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır.

İcma olaraq bildiririk ki, Ermənistan heç bir vəchlə dünya ictimaiyyətini aldada bilməz. Həqiqət ondan ibarətdir ki, Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 15-ni işğal edib, etnik təmizləmə törədib, 1 milyona qədər azərbaycanlını öz doğma yurd-yuvalarından didərgin salıb və həyata keçirdiyi təcavüzü gizlətmək üçün işğal olunmuş torpaqlarımızda cinayətkar rejim yaradıb.

Cəzasızlıqdan və həyasızlıqdan qaynaqlanan bu "prinsiplər" tamamilə qəbuledilməzdir. Münaqişənin tərəfi Ermənistan və Azərbaycan, maraqlı tərəfləri isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarıdır. Danışıqların formatı dəyişə bilməz.

Ermənistan Dağlıq Qarabağın erməni icması ilə dialoq təklifimizi nəinki rədd edir, hətta bizim mövcudluğumuzu belə inkar edir. Bu isə Ermənistanda dövlət səviyyəsində aparılan Azərbaycanafobiya siyasətinin bariz nümunəsidir.

Azərbaycanın ən böyük güzəşti uzun illərdən bəri sülh danışıqlarında iştirak etməsidir. Münaqişənin həlli yalnız və yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən tam şəkildə çıxarılması və bütün məcburi köçkünlərin öz yurdlarına geri qayıdışı ilə mümkündür.

Son vaxtlar Ermənistanın təxribatçı bəyanat və əməlləri onu göstərir ki, bu ölkənin hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı növbəti təcavüz aktı həyata keçirməyə hazırlaşır. Lakin Azərbaycan ordusu 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda olduğu kimi düşmənə layiqli cavab verəcək.

Doğma Qarabağımız Ermənistan ordusu və onun yaratdığı oyuncaq rejimdən təmizlənəcək. Tarixi torpaqlarımızın işğalı müvəqqətidir və biz mütləq öz torpaqlarımıza geri qayıdacağıq".

*Ovqat*

# Siz xalqımızın qalibiyyət bayrağı olacaqsınız!



Yadelli qəsbkarlara qarşı hər cür döyüş hər bir xalqın birinci borcudur, Azərbaycan əsgəri! Siz xalqın bu borcunun əsgərisiniz, bu müqəddəs borcu yerinə yetirmək sizin borcunuzdu. Bu borcu Ali Baş Komandanın döyüş əmriylə dövlətə, dövlətçiliyə sədaqətli vətəndaş kimi yerinə yetirərək döyüşəcəksiniz. Bu müqəddəsliyi qəhrəmanlıqla başa çatdıracaqsınız, bütün dövrlərin körpə ömürlərinin davamı kimi yaşanılacaq Qələbənin əmri olacaq. Döyüşə döyüş bayrağınla yanaşı, min illik dövlətçilik tariximizin bayrağını da aparacaqsan. Bu bayraqlar sənin döyüş əzminin, qələbə ruhunun bayraqları olacaq. Ruhunu qətiyyətlə, inamla, dönməzliklə səni yaşadan bayraqlar kölgələndirəcək. Göz dolusu sən baxacaqsan, könül dolusu xalq baxacaq. Ruhunu

rin qəhrəmanlarının davamçıları olacaqsınız.

Nə müddətdi arzuladığınız məqam ərəfəsindəyik, Azərbaycan əsgəri. Hərbi xidmətə başlayandan bəri Ali Baş Komandanın döyüş əmri verəcəyi günün intizarındaydın. Bu əmri qələbəylə tamamlayacaq əsgərlərin sırasında olmaq istəyirdin. Bu əmr Azərbaycanın, azərbaycançılığın əmri olacaq. Bu əmr Azərbaycan dövlətçiliyinə sədaqətin əmri olacaq. Bu əmr "Mən azərbaycanlıyam!" deyənləri səfərbər edən əmr olacaq. Bu əmr Bağanıs-Ayrım, Meşəli, Ağdaban, Xocalı faciələrinə görə düşmənə ittiham əmri olacaq. Bu ittiham o faciələrin qisasının əmri olacaq. Bu əmr Zəhraların qırıkölgələndirən bayraq işğaldan azad edəcəyin torpaqları da kölgələndirəcək. Xalqın orduya inamını da bayraq edib döyüşəcəksən, Azərbaycan əsgəri! "Uğurum dağlar aşacaq, dərələr keçəcək, gözəlim bayraqlar Şuşanın daşına-torpağına sarılacaq, Cıdır düzünün çiçəklərinin ləçəklərinin şehinə bələnəcək!" deyəcəksən, avtomatın qundağını sıxan barmaqların indi tətik sıxacaq.

Deyirdin ki, səngər Böyük Qələbənin yolları üstə müvəqqəti dayanacaqdı, Azərbaycan əsgəri! Bu döyüş dediklərini gerçəkləşdirəcəyin döyüş olacaq. Bu ilin iyulunda düşmən dövlət sərhədimizi pozmağa cəhd edəndə də əsgər qardaşların onun niyyətini çiliklədi, sərhəd boyunca neçə-neçə dayaq məntəqəsini dağıtdı, döyüş texnikasını sıradan çıxartdı, onlarla hərbçisini məhv etdi. O döyüşün davamı kimi döyüşəcəksən. Böyük Qələbənin son gülləsinəcən döyüşəcəksən. Düşmənin, erməniliyin son nəfəsinəcən döyüşəcəksən!

2016-cı ilin aprelində məktəbliydiniz. Siz də döyüşmək üçün ön xəttə getmək istəmişdiniz. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə atalar oğullardan, oğullar atalardan xəbərsiz müraciət etmişdi. Atalara da, oğullara da eyni cavab deyilmişdi: "Sağ olun ki, müraciət edirsiniz, ancaq buna ehtiyac yoxdur." İndi hərbi xidmətdəsiniz, əsgərsiniz. Ali Baş Komandanın döyüş əmri torpaqlarımızın işğaldan azad edilməsi üçündü. O döyüşlərin iştirakçısı olmaq niyyətiylə xidmət edirsiniz. Məqam həmin məqam olacaq, Azərbaycan əsgəri! Bu tarixi missiyanın icraçıları sırasında siz də olacaqsınız. Qazanacağınız qələbənizə mübarək deyəcəyik. Yerlər də, göylər də səsini səsimizə qatacaq. Bu qələbə işğala meyilli dövlətlərə Tofiq Fikrətin "Millət şərqisi" ilə xatırladacaq ki, "Zülmün topu var, gülləsi var, qələsi varsa, haqqın da yenilməz qolu, dönməz üzü vardır"...

Siz Şirin Mirzəyevin, Albert Aqarunovun, İsgəndər Aznaurovun, Mübariz İbrahimovun, Çingiz Qurbanovun, ... döyüş yolunu qələbəylə tamamlayacaqsınız. Böyük Qələbəniz şəhidlərimizin ruhuna gözaydınlığı olacaq.

Oğul itirən ananın oğlu kimi döyüşəcəksiniz, qardaş itirən bacının qardaşı kimi döyüşəcəksiniz. Şəhidlərin ruhu həmişə sıranızdadı, bu ruhların sağ qoluna dönüb döyüşəcəksiniz, yaraları qaysaq bağlamayan torpağın daş əlinə, dağ qoluna dönüb döyüşəcəksiniz, göy üzünün şimşəyinə, yağışına dönüb döyüşəcəksiniz, zamanında igidlərin sərhədlərdən üzülməyən baxışına dönüb döyüşəcəksiniz...

Elə döyüşün ki, Azərbaycanı sevənlər döyüşünüzdən qürurlansınlar, Azərbaycan əsgəri!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Hərb tariximizdən

# Qələbə ruhlu ömür yolunun ünvanı - Cəmşid Naxçıvanski muzeyi

*Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində tarixi bina yoldan keçənlərin diqqətini cəlb edir. XIX əsrə məxsus olan bina bir çox tarixi hadisələrin şahidi kimi bu gün də öz əzəmətini qoruyub saxlamaqdadır. Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin doğulub boya-başa çatdığı ev - Cəfərqulu xanın malikanəsi XX əsrin əvvəllərində Araz-Türk Respublikasının Naxçıvan şəhərindəki qərargahı kimi fəaliyyət göstərib. 1982-ci ildən bu günə kimi isə Cəmşid Naxçıvanskinin döyüş şöhrətini və vətənpərvərliyini aşılayan mədəniyyət müəssisəsi muzey kimi qapılarını tamaşaçılarının üzünə açıb. 2019-cu ildə muzeydə yenidənqurma işləri aparılıb.*



6 ekspozisiya zalı, fond və iş otaqlarından ibarət muzey böyük sərkərdənin keçdiyi həyat yoluna aid tarixi sənədlərin, eksponatların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması və təbliğində mühüm rol oynayır. Hazırda muzeyin fondunda 5400-ə yaxın eksponat vardır. Həmin eksponatlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Zəngin hərb tariximizin bir parçasını təbliğ və təqdim edən muzeydəki eksponatlar vasitəsilə görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin şərəfli ömür və döyüş yoluna nəzər salmaq mümkündür.

Qeyd edək ki, Cəmşid Naxçıvanskinin adının əbədiləşdirilməsi və muzeyinin yaradılması ideyası ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Muzeyin ilk ekspozisiya zalında ümummilli lider Heydər Əliyevin "Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1981-ci il 8 avqust tarixli Qərarının, "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2015-ci il tarixli Sərəncamının, "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 9 aprel 2015-ci il tarixli Sərəncamının mətnləri nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin 1984-cü və 1985-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olarkən, 1990-cı ildə Cəmşid Naxçıvanskinin Ev Muzeyini ziyarət edərkən çəkilmiş fotoşəkilləri maraqlı eksponatlar sırasındadır.

İkinci zaldakı eksponatlar bizi Cəmşid Naxçıvanskinin həyatı ilə yaxından tanış edir. Qeyd edək ki, bu il Cəmşid Naxçıvanskinin anadan olmasının 125-ci ildönümü tamam olur. Belə ki, görkəmli sərkərdə 1895-ci il avqustun 10-da Naxçıvan şəhərində ehtiyatda olan zabit Cəfərqulu xanın ailəsində doğulub. İlk təhsilini ailədə alıb, rus və fransız dillərini öyrənib. 1903-1906-cı illərdə İrəvanda xüsusi pansionatda oxuyub. Kiçik yaşlarından hərb sənətini sevməsi, bu sənətə böyük maraq göstərməsi onu Tiflisə - hərbi yunkerlər hazırlayan Kadet məktəbinə gətirib. O, 1907-1914-cü illərdə bu məktəbdə təhsil alıb. 1914-cü ilin avqustunda isə Qərbi Ukraynanın Yelizavetqrad şəhərində Qvardiya məktəbinə daxil olub. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar bu məktəbdə 4 aylıq kurs keçib. Az müddət ərzində yaxşı işi, nümunəvi davranışı və qətiyyətliliyi ilə kollektivin hörmətini qazanıb. Cəmşid Naxçıvanski 3 aydan sonra - 8 noyabr 1914-cü ildə yunker-unter rütbəsi alıb. 4 aylıq kursu bitirdikdən sonra isə ona 1 dekabr 1914-cü ildə o dövr üçün ilk zabit rütbəsi sayılan-praporşik rütbəsi verilib.

Cəmşid Naxçıvanskinin ilk hərbi təhsil illərindən bəhs edən materiallar sırasında 1911-ci ildə Tiflis Kadet məktəbinin, 1914-cü ildə Yelizavetqrad Qvardiya məktəbinin kursantları ilə, eyni zamanda I Dünya müharibəsi illərində çəkilmiş fotoşəkillər diqqəti cəlb edir. Cəmşid Naxçıvanski I Dünya müharibəsinin ən ağır cəbhələrindən olan Cənub-Qərb cəbhəsində döyüşərək, babalarının şanına və şərəfinə layiq olan cəsarət və igidlik göstərmişdir. Gənc zabit bu qanlı müharibədə üç dəfə ağır yaralanmış, müalicə olunaraq təkrar döyüşlərə qatılmışdır. Cəmşid xanın göstərdiyi şəxsi döyüş nümunəsi və şücaəti ordu rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, sərkərdə ən ali mükafatlara təqdim olunmuşdur.

Birinci Dünya müharibəsi başa çatdıqdan sonra Cəmşid Naxçıvanski tabeliyində olan hərbi hissə ilə birlikdə Vətənə qayıdır. Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli ordu quruculuğunda, həmçinin cümhuriyyətin müdafiəsində fəal iştirak edir. 1918-ci il sentyabrın 15-də Bakının erməni daşnaklarından və "Sentrokaspi diktaturası" qüvvələrindən təmizlənməsində fəallıq göstərir. Bu xidmətlərinə görə ona podpolkovnik rütbəsi təqdim olunur. Azərbaycan milli hökuməti 1920-ci il 24 mart tarixli əmrlə Cəmşid Naxçıvanskini II Qarabağ süvari alayına komandir təyin edir. O, Qarabağda erməni daşnaklarına qarşı ağır döyüşlərdə iştirak edərək Əskəran qalasının, Ağdamın, Xankəndi və Şuşanın azad olunmasında əsl igidlik göstərir. Bu döyüşlərdə Cəmşid xanla birgə qardaşı Şəki alayının komandiri III Ehsan xan Naxçıvanski də iştirak edir.

Azərbaycanda sovet hakimiyyəti qurulanda Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Cəmşid Naxçıvanskini Sovet Azərbaycanının ordu quruculuğunda iştirak etməsi üçün Bakıya dəvət edir. Cəmşid xan Qarabağdan Bakıya qayıdır. Əvvəlcə Azərbaycan Birləşmiş Komanda Məktəbinə təsərrüfat rəisi, daha sonra məktəbin rəisinin birinci köməkçisi vəzifəsinə təyin edilir. Bu illərdə Cəmşid xan vaxtının böyük hissəsini məktəbin müdavimləri ilə keçirərək milli hərbi kadrların yetişdirilməsi istiqamətində fəaliyyətini qurur. Cəmşid Naxçıvanskinin 1918-1921-ci illərdə döyüş yolu və Azərbaycan Birləşmiş Hərbi Məktəbinə rəhbərliyi illərini özündə əks etdirən, həmçinin onun Azərbaycan Birləşmiş Hərbi Məktəbinin müəllim və zabitləri və 1921-ci ildə silahdaşları ilə birgə fotoları ömür yolunun bu hissəsini öyrənməkdə bizə bələdçilik edir.

1921-ci ildə Cəmşid Naxçıvanskiyə daha çətin və məsuliyyətli bir vəzifə - Azərbaycanın ilk Milli Atıcı Diviziyasını yaratmaq tapşırılır. Cəmşid Naxçıvanski hərbçi peşəkarlığı ilə bütün bacarığını və gücünü diviziyanın yaradılması işinə sərf edir. Diviziyaya komandirliyi dövründə bir neçə dəfə ali akademiya kurslarında iştirak edir. Bütün qoşun növlərinin strategiyasını mükəmməl öyrənir və hərbi işi dərindən bilən bir komandir kimi Bakıya qayıdır. Məlumat üçün qeyd edək ki, bütün göstəricilərinə görə Zaqafqaziyada öndə olan Azərbaycan milli diviziyası Cənubi Qafqazda ilk dəfə olaraq hava və hücumundan kimyəvi vasitələrlə müdafiəni təşkil etmişdir. Cəmşid xanın rəhbərlik etdiyi diviziya Azərbaycanın sərhədlərini havadan və qurudan qoruyaraq milli hərb tariximizə yeni bir nəfəs gətirmişdir. Muzeydə Cəmşid Naxçıvanskinin Azərbaycan milli atıcı diviziyasının yaradılmasında xidmətlərindən və diviziyaya komandirliyi illərindən bəhs edən eksponatlar nümayiş olunur. Guşələrdən birində Cəmşid Naxçıvanskinin 1925-ci ildə çəkilmiş şəkli, Azərbaycan milli diviziyasına bayraq təqdim olunarkən, bölmə komandirləri ilə birlikdə, diviziyanın əsgərləri təlimə yollanarkən çəkilmiş şəkilləri sərgilənir.

Cəmşid Naxçıvanskinin komandirliyi illərində Azərbaycan milli diviziyasının taktiki təlim məşğələləri, hərbi-siyasi oyunları mütəşəkkil səviyyədə hazırlanırdı. Ekspozisiyanın III zalında ilk guşə diviziyanın keçirdiyi hərbi təlimlərdən bəhs edir. Qeyd edək ki, 1920-1930-cu illərdə Azərbaycan milli diviziyası Zaqafqaziya Hərbi Dairəsində keçirilən bütün növ hərbi təlimlərdə iştirak etmiş və hər dəfə də ilk yerlərdən birini (müxtəlif kateqoriyalar üzrə) qazanmışdır.

Cəmşid Naxçıvanski 1921-1931-ci illərdə komandirlik etdiyi diviziyanın döyüş intizamını və döyüş hazırlığını ən yüksək səviyyəyə çatdırmışdı. Sərkərdə şəxsi heyətin siyasi-ideoloji hazırlığını yüksəltmək məqsədilə diviziyanın "Hərbi bilik" jurnalını təsis etmiş və dərgidə ən aktual mövzularla çıxış etmişdir.

Ekspozisiyadakı digər eksponatlar Cəmşid Naxçıvanskinin M.V.Frunze adına Hərbi Akademiyada təhsil illərindən və hərbi pedaqoji fəaliyyətindən bəhs edir. 1931-1934-cü illərdə diviziya komandiri Cəmşid Naxçıvanski Moskvada M.V.Frunze adına Hərbi Akademiyada təhsil almış, akademiyanı fərqlənmə diplomu ilə bitirərək orada müəllim saxlanılmış, ümumi taktika kafedrasına rəhbərlik etmişdir. Cəmşid Naxçıvanskinin hərbi xidmətləri yüksək qiymətləndirilmiş, ona 1935-ci ildə general-mayor rütbəsi verilmişdir. Cəmşid Naxçıvanski akademiyada gənc sərkərdələr nəslinin hazırlanmasında da əməyini əsirgəməmişdir.

Generalın hərbi fəaliyyətinin Moskva dövrünü özündə əks etdirən stendlərə və 1936-cı ildə hərbi paradda çəkilmiş fotolarına baxanda adamın qəlbi qürurla döyünür. Şərəfli sərkərdə ömrü fotolent kimi gözlərində canlanır.

Növbəti guşədə döyüş xidmətlərinə və hərbi fəaliyyətinə görə aldığı təltifləri, həmçinin məqalələrinin dərc olunduğu "Hərbi bilik" jurnalının nümunələri Cəmşid Naxçıvanskinin döyüş qabiliyyətini və fədakarlığını sərgiləyir. Cəmşid Naxçıvanski Birinci Dünya müharibəsində döyüş xidmətlərinə görə 1916-cı ildə aldığı: 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordenini, üzərində "İgidliyə görə" sözləri yazılmış 4-cü dərəcəli "Müqəddəs Anna" ordenini, 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordenini, 1917-ci ildə aldığı 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordenini, 3-cü dərəcəli "Müqəddəs Anna" ordenini, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordenini və 1930-cu ildə hərbi fəaliyyətinə görə aldığı "Qırmızı Əmək Bayrağı" ordenini şərəflə daşıyıb.

Sovetlər birliyi dövründə hərb sənətinin inkişafında və kadr hazırlığı sahəsində səmərəli fəaliyyət göstərməsinə, dəfələrlə mükafatlandırılmasına baxmayaraq 30-cu illərin repressiya dalğası Cəmşid Naxçıvanskinin də taleyindən yan keçmir. Əvvəllər Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olduğu üçün daim nəzarətdə saxlanılır, ona qarşı təqiblər get-gedə artır, haqsız ittihamlar irəli sürülür. Bu illər ərzində Cəmşid Naxçıvanski bir neçə dəfə həbs olunur. 1938-ci ildə Cəmşid Naxçıvanskiyə olan inamsızlıq daha da artır. 1938-ci ilin mayında həbs olunan generala 26 avqust 1938-ci ildə keçirilən məhkəmə iclasında ölüm hökmü çıxarılır. Xalqımızın digər görkəmli nümayəndələri kimi Cəmşid xan da haqsızlığa məruz qalaraq repressiya qurbanına çevrilir. İllər sonra 1956-cı ildə ona SSRİ Ali Məhkəməsi tərəfindən rəsmi bəraət verilir. Muzeydə olan fotoların içərisində Moskvanın 25 kilometrliyində Kaluqa şosesi üstündə yerləşən "Kommunarka" həbs düşərgəsindən də şəkillər var. 30-50-ci illərdə siyasi repressiyaya məruz qalanlar burada həbsdə saxlanılmış, güllələnərək kütləvi şəkildə dəfn olunmuşlar. Cəmşid Naxçıvanskinin də məzarı bu qardaşlıq qəbiristanlığındadır.

Azərbaycanın hərb tarixində özünəməxsus yer tutan Kəngərli nəslinin yetirdiyi 6 generaldan biri olan Cəmşid Naxçıvanski döyüşlərdə göstərdiyi şücaəti, Vətənə sədaqəti, sərkərdə məharəti ilə gənc və gələcək nəsillərə örnəkdir. Sıravi yunkerlikdən general rütbəsinədək yüksələn unudulmaz sərkərdə Cəmşid Naxçıvanski hərb tariximizə şanlı səhifələr yazıb. Döyüş ruhlu ömür yolunun ünvanı - Cəmşid Naxçıvanski muzeyinin qapıları hər bir tamaşaçısının üzünə açıqdır. Xatırladaq ki, bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur. Bu qapını açaq və hərb tariximizin şanlı səhifələrini vərəqləyərək qürur hissi keçirək.

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

*Könlüm şeir istəyir*

# "Zəfər adlı böyük günə and olsun!"

*Şeir həm duyğular üçündü, həm də düşüncələr üçün. Misra-misra könlümüzü tellləndirən şeirlər də, düşüncələri tərpədən şeirlər də maraqla oxunur. Azərbaycan əsgərinin könül dünyası şeir, şeiriyyət üzünə həmişə açıq olub. Təbiət şeirlərindən vəcdə gələnlər, sevgi şeirlərinin misra-misra titrəyişini ürəyinə köçürənlər üçün Vətən şeirləri kəhkəşan misallıdır, oxuyursan, oxuduqlarını düşüncələrinə, düşüncələrindən ürəyinə köçürürsən, baxdıqca baxırsan. Baxmaqdan nə göz doyur, nə könül əl çəkir. Bu səbəbdən gözəl şeirlər oxuyanın yaşantılarının göyqurşağına dönür. Gözəl şeir həm də yaz yağışından sonra göy üzünə yayılan qövsi-qüzeh kimidir.*

*Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlayacaq əsgərlərimiz gözəl şeirləri duyğularına, düşüncələrinə çisək bilir...*

**"Azərbaycan Ordusu"**

*Rəsul RZA*

## And

And içirik bu dərəyə, bu dağa!
Əcdadımız can qoyduğu torpağa!
And içirik şəfəq rəngli bayrağa!
Ana Vətən, sənə layiq olarıq.
Yağıları darmadağın salarıq.

Könüldəki sədaqətə and olsun!
Düz ilqara, məhəbbətə and olsun!
Bizim böyük həqiqətə and olsun!
Göy üzündə açanda biz qanadı,
Ərşə çıxar yağıların fəryadı.

And içirik azadlığın adına.
And içirik şirin ömrün dadına.
And içirik sənə, ana-qadına.
Ömrümüzü elə qurban verərik.
Gülə-gülə yolunda can verərik.

Anamızın saf südünə and olsun!
Alqışına, öyüdünə and olsun!
Zəfər adlı böyük günə and olsun!
Azadlığın bayrağını hər zaman,
Azərbaycan qoruyacaq yağıdan!

*Nəbi XƏZRİ*

## İstiqlal marşı

Göz açdığım qədim torpaq,
Dayağımsan sən dünyada.
Doğma anam, ey mehriban,
Ey qəhrəman, Azərbaycan!
Addım-addım qucağından
Odlu sellər çağlasa da,
Həsrət qaldın sən işığa,
Zaman-zaman, Azərbaycan!
Yadellilər damla-damla
Al qanını sordu sənin,
Kimlər sənin göz dikmədi
Torpağına, Azərbaycan!
Bayrağını endirdilər,
Ancaq özün əyilmədin,
Alqış bu gün o ucalan
Bayrağına, Azərbaycan!
Səhər kimi cavan sənsən,
Tarix kimi qoca sənsən.
Fatehləri diz çökdürən
Vüqarımsan, Azərbaycan!
Öz müqəddəs dağlarından
Günəş kimi uca sənsən,
Yer üzündə mənim Odlar
Diyarımsan, Azərbaycan.
Səhərlərin qoy açılsın,
Təzə nurlu bahar ilə,
Gələcəyə mərd addımla,
Uğurla get, Azərbaycan!
Şəhidlərin al qanından,
Lalə açmış yollar ilə,
İstiqlalın sabahına
Qürurla get, Azərbaycan!

*Cabir NOVRUZ*

## Vətən əbədi qoruqdur...

Vətəni sevmək azdır,
Onu qorumaq gərək.
Vətənim demək azdır,
Vətənin olmaq gərək.

Onun adi torpağı,
Ruhdan, candan irəli...
O, anandan qabaqdır,
O, atandan irəli...

Sərhədləri qız təki
Toxunulmaz, bakirə.
Hələ övlad deyil ki,
Hər doğulan sakini...

Övlad gərək Vətənə,
Vətəndir yol, deyirlər...
Ona qurban gedənə,
Əsl oğul deyirlər...

Sevməyirsə el səni,
Yox dərdinin çarəsi.
Onun dili, lisanı,
Ən basılmaz qalası...

Onun əvəzi olmur,
O hər kəsdən irəli.
Gözdən əzizi olmur,
Vətən gözdən irəli...

Adi quşcuğazın da
Ola Vətəni gərək.
Vətəni sevmək azdır,
O sevə səni gərək...

Nə vaxt viran olur o,
Zülmət gəzir üzündə:
Cığırını, yolunu
Yad çəkmələr əzəndə...

O nə zaman bölünər,
Nə vaxt çıxar əlindən?
Ləhcəsinə, dilinə
Yad ləhcələr girəndə...

O keçməz əldən-ələ,
O əbədi diləkdir.
Qara tikanı belə
Yenə Vətən deməkdir...

Fərqi yoxdur azca da;
Ya kiçik yalı getdi,
Ya bir quru ağacı,
Ya bir mahalı getdi...

O daimi namus, ar,
O əbədi qoruqdur.
Ürkək quş kimi uçar,
Onu əldən buraxdın...

Bilir ərlər, ərənlər,
Vətənə tay olmayır,
Ömürdən pay verərlər,
Vətəndən pay olmayır.

*Musa YAQUB*

## Bir əsgərin Tanrı duası

Ulu Tanrım!
Müqəddəslər müqəddəsi,
bir şərəfli vuruş üçün
Uğur dilə, yol ver mənə!
Babaların cürətini,
qüdrətini al ver mənə,
Düşmənimə hiddətlərin
Hiddətini al ver mənə,
Qanım axsa,
Sən üstəlik qanımı ver,
Canım getsə, canımı ver.
Al ruhumu qanadlandır,
Damarımı palıdlandır.
Bədənimi poladlandır.
Kirpiyimi oxa döndər,
Ayağımı
diyircəkli çarxa döndər.
Qollarımı lülə elə,
Barmağımı güllə elə,
şər üstümə yeriyəndə,
Düşmən məni hərləyəndə,
Çarpanağa döndər məni.
Qanım axan bir torpağa
Al bayrağa döndər məni.
Zərrə olum, qəlpə olum,
Düşmənimə qoy yenidən
zərbə olum.
Düşmən qaçır,
Avtomatım, açıl, açıl!
İlan kimi mələ görüm,
Sinəmi dürtmələ görüm,
Döşümü yumrula görüm,
şər yolunu bağla görüm.
Yad ayaqda tapdaq olan
bir torpağın - Qarabağın
qarşısında üzüm qara.
Öz elində yesir olan,
Namərdlərə əsir olan
Anam-bacım, soydaşımın,
şəhid olan qardaşımın
qarşısında üzüm qara.
Yox, boğuram öz ahımı...
Ulu Tanrım - Azərbaycan,
Ağ südünü ovcuma sağ,
Öz əlimlə
yuyum qara günahımı.
De doğ mənim sabahımı,
De boğ mənim tamahımı.
Dodağımda bircə kəlmə
"başqa" olsa, "özgə" olsa,
Ürəyimdə bircə qırıq
titrəyişdən kölgə olsa,
Qorxaqlığım, xəyanətim
olsa əgər, demə mənə
əsgər oğlu, oğul əsgər.
Qorxaq nədi, əsgər nədi,
"Bəlkə" nədi, "məgər" nədi.
Ölüm-dirim vuruşunda
imtahan və sınaq nədi,
Bu ki Vətən yürüşüdü,
Bu ki qeyrət vuruşudu,
Bu ki namus döyüşüdü.
Qurban gedən oğul varsa,
Ana yurdun bu, sabahla
görüşüdü.
Əsgər nədi, qorxaq nədi,
Verdim nədi, torpaq nədi?!
Bu, müqəddəs bir ölümlə
Millətini diriltməkdi,
Bu, səngəri suvarmaqdı,
Bu, torpağı göyərtməkdi,
Qanım vuruş, canım vuruş,
qolum vuruş!
Torpaq nədi, verdim nədi
bircə qarış...
Əsgər nədi, səngər nədi?!
geri nədi?!
Vətən yoxsa, torpaq yoxsa,
Yaşamağın yeri nədi?!
Ulu Tanrım!
Sən şərəfli ölümlərə
öyrət məni.
Sonra, sonra,
Torpağımın sabahında
Öz qanımdan göyərt məni!

# Xəbərlər: hadisələr, faktlar

### Gürcüstan-Rusiya sərhədində baş verən qarşıdurma nəticəsində iki nəfər ölüb



Gürcüstan ilə Rusiya arasındakı Lars sərhəd keçid məntəqəsində hər iki ölkənin vətəndaşları arasında qarşıdurma olub. Hadisə nəticəsində iki nəfər ölüb.

Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Neytral ərazidə baş verən qarşıdurmaya iki sürücü arasında yaranan mübahisə səbəb olub. Məlum olub ki, Gürcüstan və Rusiya vətəndaşlığı olan 1981-ci il təvəllüdlü A.M. 1956-cı il təvəllüdlü A.Q.-yə öldürücü zərbələr endirib. A.Q. aldığı xəsarətlərdən hadisə yerində ölüb. Daha sonra A.Q.-nin oğlu 1980-ci il təvəllüdlü V.Q, soyuq silahdan istifadə edərək atasını qətlə yetirən A.M.-ni öldürüb.

V.Q. təqsirləndirilən şəxs qismində Kazbeki rayonunda saxlanılıb və barəsində araşdırma başlanıb. Onu 7 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

### Türkiyədə FETÖ terror təşkilatı ilə əməkdaşlıqda şübhəli bilinən 106 hərbçi saxlanılıb



Türkiyə Silahlı Qüvvələrinin (TSK) FETÖ terror təşkilatı ilə əməkdaşlıqda şübhəli bilinən hərbi qulluqçularının saxlanılması istiqamətində genişmiqyaslı əməliyyat keçirilib.

Ölkənin 34 vilayətində paralel keçirilən əməliyyatlar zamanı TSK-nın terror təşkilatı ilə əlaqə saxlamaqda şübhəli bilinən 132 üzvündən 106-sı saxlanılıb.

Şübhəli bilinən digər şəxslərin də saxlanılması istiqamətində əməliyyatlar davam etdirilir.

### Rusiyada narkoloji klinikada baş verən yanğın nəticəsində 4 nəfər həlak olub



Rusiyanın Krasnoyarsk diyarında özəl narkoloji klinikada baş verən yanğın nəticəsində 4 nəfər həlak olub.

Hadisə gecə saatlarında baş verib. Qısaqapanma nəticəsində yaranan yanğın zamanı iki nəfər də xəsarət alıb. Onların vəziyyəti ağırdır.

Hadisə ilə əlaqədar cinayət işi açılıb. Klinikanın rəhbəri saxlanılıb.

### Ermənistan ordusunun beş hərbçisi kütləvi davada xəsarət alıb



Azərbaycanın işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçular arasında kütləvi dava baş verib. Dava nəticəsində beş nəfər xəsarət alıb.

Artilleriya divizionunda xidmət edən gənc əsgərlərlə müqavilə əsasında xidmətdə olan hərbçilər arasında baş verən mübahisə sonradan davaya çevrilib. Hərbi qulluqçular Hayk Martirosyan, Aram Papikyan, Narek Torosyan, Tiqran Aseryan, Artik Musoyan müxtəlif dərəcəli bədən xəsarətləri ilə tibb məntəqəsinə yerləşdirililər.

Komandanlıq hadisəni ört-basdır etməyə çalışıb. Lakin davada xəsarət alanlardan birinin vəzifəli qohumu bu hadisədən xəbər tutduqdan sonra hərbi hissə komandiri hərbi prokurorluğa məlumat verməyə məcbur olub.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik-leytenant Nağıyev Vüsal Sayad oğluna 2017-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 539
Nüsxə 3960